# HƏRBİ AND

Azərbaycan Respublikasına xidmətimlə fəxr edirəm!

№ 37 (900) 01 oktyabr 2021-ci il, Həftəlik ictimai-siyasi qəzet Qiyməti : 50 qəpik


# QƏHRƏMANLAR ÖLMÜR

## Vətən Müharibəsi Qəhrəmanı, baş leytenant, şəhid Azad Hümbətov

**Azad Arif oğlu Hümbətov 24 yanvar 1996-cı ildə Bakı şəhərində doğulub. Gözünü dünyaya açandan Göyçə mahalının Daşkənd kəndində doğulan atası Arifdən Vətən nisgilli, yurd həsrətli söhbətlərə, xatirələrə hakim kəsilmişdi, Azad. Beləcə, onda vətənpərvərlik hissləri lap uşaqlıqdan baş qaldırmış, xalqımızın düşmənlərinə qarşı intiqam hissi alovlanmağa başlamışdı. Azad Nərimanov rayonunda yerləşən 291 nömrəli "Ekologiya liseyi"ni əla qiymətlərlə bitirsə də, respublikanın heç bir universitetində təhsilini davam etdirmək istəmir. O, hərb yolunu seçir. Fikirləşir ki, yalnız Vətəni hərbçi olaraq düşmənlərdən xilas edə bilər. Beləliklə o, 2013-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin tank bölüyü ixtisasına qəbul olur. Seçdiyi ixtisası sevə-sevə oxuyur, öyrənir. Təlim-tədris zamanı Azad həmişə öncüllər arasında olur. 2017-ci ildə hərbi məktəbi leytenant rütbəsi ilə bitirir. Təyinatı və istəyi üzrə elə həmin ildən də ön cəbhədə, Füzuli rayonunun Horadiz şəhərindəki "N" saylı hərbi hissədə öz vəzifəsinə başlayır.**



Azad Hümbətov

Azad Hümbətov peşəkarlığını daha da artırmaq üçün Bakıda yerləşən Silahlı qüvvələrin təlim və tədris mərkəzində 45 gün müddətində zabit heyətinin təkmilləşdirmə kursunu keçərək baş leytenant hərbi rütbəsi alır. O, 2018-ci ildə "Azərbaycan Ordusunun 100 illiyi" münasibətilə keçirilən hərbi ədbirdə ön sırada bayraqdar vəzifəsi daşıyır. Bu tədbirdən sonra ona Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalı Müdafiə nazirliyi tərəfindən təqdim olunur.

Azad Hümbətovun 2020-ci ilin sentyabrında uşaqlıqdan boy verən arzuları - düşməndən qisas almaq, işğal altında olan torpaqları azad etmək xəyalları gerçəkləşir. O, Füzuli rayonundakı ermənilərin keçilməz sədd adlandırdığı cəbhə xəttinin yarılmasında qəhrəmanlıq göstərir. Tank taqımı komandiri olaraq öndə gedən Azadın döyüşçü yoldaşları da onunla bərabər düşmənə sarsıdıcı zərbələr endirirlər. O, taqım heyəti ilə bərabər düşmənin 5 tankını qənimət kimi ələ keçirmiş və öz mövqelərinə gətirib çıxarmışlar.

Döyüşlərin birind etdiyi qəhrəmanlıq haqqında əmisi Bakir belə deyir:

"Azad müharibənin ilk günlərində komandirlik etdiyi tankı ilə minaya düşür. Özü ayağından yaralanır. Buna baxmayaraq tank mexanikinin daha ağır xəsarətlər aldığını gördükdə onu yaralı halda belinə alaraq xilas etməyə çalışır. Düşmənə rast gəlməmək üçün meşəliklə təxminən 25 km yolu 2 günə öz döyüş postlarımıza gətirib çıxara bilir. Azadın özü də yaralı olduğu üçün onu Beyləqanda hospitala müalicə üçün göndərirlər. O isə müalicəsi qurtarmamış yenidən döyüş meydanına qayıdır."

Baş leytenant Azad Hümbətov Füzuli, Xocavənd, Qubadlı, Laçın və digər cəbhələrdə düz bir ay yoruldum demədən, dincəlmədən sərasər döyüşür. Və son döyüşü...

27 oktyabr 2020-ci ildə Vətən müharibəsinin çox əhəmiyyətli və ən strateji mövqeyi olan Laçın dəhlizi uğrunda gedən döyüşlərdə son qəhrəmanlıqlarını göstərərək şəhid olur. Şəhid olmağıyla da Azad bir evin yox, bir elin övladı olur. İndi o təkcə Arif və Leyla xanımın oğlu yox, bütün Azərbaycanın oğludur.

Baş leytenant Azad Hümbətov İkinci Fəxri Xiyabanda general-mayor Polad Həşimovla bir sırada dəfn olunub.

9 dekabr 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş komandanı İlham Əliyevin sərəncamı ilə baş leytenant Hümbətov Azad Arif oğluna (ölümündən sonra) "Vətən Müharibəsi Qəhrəmanı adı verildi. Bundan sonra Azad Hümbətov 15 dekabr 2020-ci ildə "Vətən uğrunda", 25 dekabr 2020-ci ildə isə "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olundu.

Vətən Müharibəsi şəhidi, "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə də təltif olunmuş Əladdin Səidov

Səidov Əladdin Azər oğlu 17 iyun 1992-ci il tarixində Bakı şəhərinin Nərimanov rayonunda anadan olub.

O, 1998-2009-cu illərdə 193 nömrəli tam orta məktəbində təhsil alıb. 2009-2013-cü illərdə isə Azərbaycan Texniki Universitetinin Maşınqayırma və Robototexnika fakültəsində oxuyub. Nişanlı idi.

Azərbaycan Ordusunun əsgəri olan Əladdin Səidov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə fəal iştirak edərək şücaət göstərib. Əladdin Səidov noyabrın 3-də Şuşa döyüşləri zamanı şəhid olub.

Şəhid Bakı şəhərində dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Əladdin Azər oğlu Səidov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib. O, həmçinin ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə də təltif olunub.

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə Şanlı Ordumuzun qalib gəldiyi 44 günlük Vətən Müharibəsində fədakarlıq göstərən igid şəhid oğullarımızdan biri olan Əladdin Səidovun 17 iyun 2021-ci il tarixində doğum günü qeyd olunmuşdur.

"Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmiş şəhidin doğum günü münasibətilə Nərimanov Rayon İcra Hakimiyyətinin və Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə rayonda salınmış abad məhəllədə şəhidin xatirəsinə həsr edilmiş basketbol turnirikeçirilib. Turnirin sonunda qalib və iştirakçı komandalara şəhid ailəsinin iştirakı ilə müvafiq dərəcəli diplom və medallar, şəhid atası Səidov Azərə isə turnirin xatirə diplomu təqdim edilib.



Səidov Əladdin

Vətən Müharibəsi şəhidi, "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə ölümündən sonra təltif olunmuş Kamran Hüseynov

Kamran Hüseynov 1996-cı il avqustun 14-də Bakı şəhərində anadan olub. 2002-2013-cü illərdə Bakı şəhərində 287 saylı Zəkalar liseyində, 2013-2017-ci illərdə isə Naxçıvan Müəllimlər İnstitutunda təhsil alıb.

Kamran Hüseynov 2017-ci ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin Culfa rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmət edib. 44 günlük Vətən müharibəsi başlayanda Kamran könüllü orduya yazılmışdı. Valideynlərinə isə döyüş bölgəsinə çatdıqdan sonra xəbər vermişdi.



Kamran Hüseynov

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Kamran Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən Müharibəsi zamanı Füzuli istiqamətində gedən döyüşlərdə iştirak edib. Kamran Hüseynov oktyabrın 1-də Füzuli döyüşləri zamanı şəhid olub. İkinci Fəxri Xiyabanda torpağa tapşırılıb. Kamran Hüseynov ailəli idi. Ondan geriyə Aslan adlı bir oğul övladı qaldı. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti cənab İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən Kamran Hüseynov ölümündən sonra "Vətən uğrunda" və Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti cənab İlham Əliyevin 25 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə Şanlı Ordumuzun qalib gəldiyi 44 günlük Vətən Müharibəsində fədakarlıq göstərən igid şəhid oğullarımızdan biri olan Kamran Hüseynovun 14 avqust 2021-ci il tarixində doğum günü - 25 yaşı qeyd olunmuşdur.

Vətən Müharibəsi şəhidi, "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə ölümündən sonra təltif olunmuş Kamran Hüseynovun xatirəsinə həsr olunmuş gənclər arasında futbol turniri keçirilib. Turnirin sonunda qalib və iştirakçı komandalara şəhid ailəsinin iştirakı ilə müvafiq dərəcəli diplom və medallar, şəhid atası Bəhman Hüseynova isə turnirin xatirə diplomu və Azərbaycan Bayrağı təqdim edilib.

*Ardı var...*

***Samir KAZIMOV***